

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# BİR GECƏ, BİR GÜN...

## Mənəvi müstəvi havası üstə

**Hə, yəqin başlığı oxuyub fikirləşəcəksiniz ki, görəsən söhbət nədən gedir. Mən də sizi çox intizarda saxlamayıb elə bəri başdan deyim ki, bir gün, bir gecədən sonra fevralın 9-u tarixiləşəcək. Gözü, ürəyi qutuda, qulağı MSK-da olan 125 nəfər seçici səsilə öz arzusuna qovuşacaq. Kənarda qalanlar da elə bu bir gün, bir gecədə nə yaşayıblarsa, onu bükük qoyacaq ürəyinin bir küncünə. Kimi gileylənəcək... kimi düşmən axtaracaq... kimi ədalətsizlikdən bəhs edəcək... kimi də səssizcə çəkiləcək arxada qalan zaman kəsiyinə... Amma bütövlükdə bunların hamısı 9 fevralın ayağına yazılacaq. Çünki həmin tarix artıq birmənalı şəkildə ölkənin bir Seçilənlər günüdür. Ona görə seçiləndi ki, 2020-ci il parlamenti məhz həmin gündən qaynaqlanacaq...**

Bax, beləcə yazıma başlayıram və düşünürəm ki, giriş olaraq yazdığım fikirlər, müəyyən mənada həm də baş verənlərə münasibətdi. Təbii ki, bir vətəndaş, bir yazar münasibəti. Deməli, bu münasibət həm də onu göstərir ki mən də 9 fevrala bir gün, bir gecə məsafəsindəyəm. Amma bütövlükdə həyatla, son nöqtəylə nə qədər məsafədə olduğumu yalnız Yaradan bilir. Onun bildiyini isə bəndənin bilməsi qeyri mümkündü. Sadəcə olaraq, bəndə fəhm edə bilər... təxminliklə fikir ortaya qoyar. Bu isə tamam başqa bir yanaşmadı. Mən də olanları birbirinə qarışdırmadan öz məntiqimə söykənib demək istəyirəm ki, bütün təxminlərin topası bir gerçəyi əvəz etmir. Elə bu mənada da hər şeyin zamana ehtiyaclı olması, zamanın ixtiyarına verilməsi normal sayılmalıdır. Və bir də unutmaq lazım deyil ki, bəlli tarixlər özləri də seçilmişlərdən olurlar. Onlar da bu seçimlərlə cəmiyyətin, bəşəriyyətin, dünyanın, lap elə ayrı-ayrı coğrafiyaların tarixində özlərini möhürləyirlər. Və...

Bəli, indi siyasi, ictimai müstəvidən mənəvi dəyərlərə doğru üz çevirirəm. Çünki bu müstəvidə özümü daha rahat hiss edirəm. Axı orda söhbət insanın içindən, hisslərindən, yaşantılarından, əməllərindən, lap elə xəyallarından gedir. Hətta yuxuların özü də bu mənəvi müstəvidə həm mövzu, həm də təsəlli baxımından diqqət çəkəndi. Mənimlə razılaşarsınız ki, gördüyümüz yuxu gerçək yozumu ilə bizdə ruh yüksəkliyi yarada bilir. Adətən yuxuda qan görənə qovuşacaqsan deyirlər, su görənə aydınlıq olacaq söyləyirlər. Saç görənə qarşında yol görünür - deyə işarə edirlər. Pul, qızıl görənə isə səs eşidəcəksən himi edib və əlavə olaraq da "xeyir xəbər olsun" duasını səsləndirirlər. Bütün bunları atüstü diqqətə təqdim etməklə mənəvi müstəvinin çalarlarını bir balaca işıqlandırdım. Demək istədim ki, bu zənginliyin içərisində siyasət də, maddiyyat da yaddan çıxır, unudulur. İnsan mənən bir fürsət əldə edir. Özü ilə, iç dünyası ilə baş-başa qala bilir. Və belə yerdə hətta solan, erkən yarpaq tökən ümidlər də şeirləşir:

**Mənim ümidlərimin**
**Payızı tez yetişdi...**
**Ürək ilk xəzəl üçün -**
**Keçmiş olsun - demişdi...**

**Gözləmədi vaxt, zaman**
**Qəm ələndi, qəm, yaman...**
**Mən deyəndə əl, aman -**
**Göz qarası getmişdi...**

**Olmuşdan olanadək**
**Boşalan dolanadək...**
**Minnətçi salanadək -**
**Bildiyini etmişdi...**

**Əbülfətə qalansa**
**Dərddi, hopub balansa!**
**Dünya əgər yalansa -**
**Onda hər şey keçmişdi...**

***

Biz zamanın həm daşıyıcısıyıq, həm də bir hissəsi. Nə qədər ayaqdayıq, daşıyırıq zamanı özümüzlə, təbii ki, onun bir hissəsi olaraq. Elə ki, bitdik, onda öz zamanımızı, yəni o zamanın içərisindəki bir hissəciyi elə zamanın öz tarixinə atıb keçmiş oluruq. Ona görə də zamanında zamanın bir hissəsi ola bilməyənlər barəsində adətən danışmırlar, susurlar. Olanlar barəsində isə keçmişdə danışırlar. Yəni onlar keçmiş zamanın hissəcikləri kimi xatırlanırlar. Bu baxış bucağı altında baxanda özümün zamanın hansı səhifəsində, hansı görmə məntəqəsində olacağımı demək çox çətindi. Hətta OLACAĞAMMI? - fikri də gerçəklik kimi məndən uzaqda dayanmır. Ona görə də gücüm çatan qədər içində olduğum zamanın havasını duymağa, o havanın notlarını mənimsəməyə çalışıram. Doğrudur, adamların hər birinin fərdi mahnısı var, havası var. Və bütün havalar insanların ruhunu oxşamır. Ona görə deyirlər ki, hərənin öz havası. Yeganə zamanın havasıdı ki, onu hər kəs dinləməyə məcburdu, məhkumdu.

Deməli, mən zamanın havasına qol qaldırmasam da, ən azından ayaqda durub ona əl çalmaq zorundayam. Axı, başqaları oynayır. Oynayanları isə bu və ya başqa formada həvəsləndirmək mütləqdir. Əgər bunu etməsən, onda mütləq incik, ittihamedici, hətta bəzən küskün baxışlarla da qarşılaşa bilərsən. Dediyim bu mənzərəni dəfələrlə hər birimiz şənliklərdə, şadyanalıqlarda müşahidə etmişik...

Bəli, indi havanın qeyri-sabit bir vaxtında zamanın havasını tutmaq asan olmasa da, mən bütün gücümü toplayıb mənəvi dinclik üçün, rahatlıq üçün sözün işığına sığınmışam. O söz ki, onu dinləmək, onu eşitmək elə öz havamla qol-boyun olmaq kimi bir şeydi. Hətta ən acı, ən ittihamedici söz belə insanın ruhunda, duyğularında bir əks-səda doğurur. Bu əks-səda da zamana, onun havasına atılmış daş kimi dəyib qayıdır üzü geri. Yəni bütün məzmunu ilə söz zamana uyğun gəlirsə, onunla birmənalı şəkildə üst-üstə düşürsə, bu artıq əks-sədadı. Amma heç bir qığılcım yaratmırsa, onda söz sahibinin dilindən və qulağından uzağa gedə bilmir. Düşünürəm ki, havalı sözlər, havalı ruhların pıçıltılarıdı... onların zamana əks-sədasıdı. Və mən də çiynimdəki yükün, ürəyimdəki ağrının həmin o sözə çevrilən və mənim özümü ifadə edən sözlərin yaxşı mənada girovuyam. Ona görə də sözün ətəyini buraxmamaq, sözü qələmlə, kağızla və zamanla birgə görmək missiyasını özümə bir əbədi iş kimi, vəzifə kimi seçmişəm. Çalışıram ki, bütün məqamlarda sözün məqamıyla, zamanın sözüylə və həm də zamanını havasıyla bir müstəvidə olum. Yenə təkrar edirəm ki, bu, mənəviyyat müstəvisidi. Oradan baxanda hamını, hər kəsi, mən isə hamıdan daha çox Səni görürəm. Onda həmin o zamanın havası duyğularımı sığallayır, onları yavaş-yavaş misralayır:

**Gözlərin yorulub - gözün qayğısı**
**Yükləndi qəlbimə elə indicə...**
**Canımı verərəm, bil istəmərəm -**
**Sənin gözlərini kimsə incidə!..**

**Ruhumun əkizi, qəlbimin özü**
**Sən ki, dözümlüsən, belə sıxılma...**
**Mən qurban demişəm sənə bu gözü -**
**Qəbulun ürəklə elə, sıxılma...**

**Hər anım nəfəs tək səninlə bağlı**
**Bütün anlarımı götür, sıxılma!**
**Nə qədər ağrı var, nə qədər qayğı -**
**Onu mənə tərəf ötür, sıxılma!**

**Qaytar gözlərinə mənə sevgini**
**Qaytar Ümidinin ümidi kimi!**
**Al mənim gözümdən sənə sevgini -**
**Ovutsun o səni ümidin kimi!**

Hə, düşünəcəksiniz ki, zamanın mənəvi müstəvisində ümidsizliyə ümidin, həsrətlə vüsalın, sevinclə kədərin başbaşa gəlməsi, bir-birini diz çökdürməyə çalışması niyə bu qədər problemə çevrilib? Nədən bu qədər çözülür, araşdırılır? Və heç bir bəlli nəticə ortaya qoyulmur. Mən bu sorğunun cavabını özüm üçün çoxdan müəyyənləşdirmişəm. Bilirəm ki, hər bir insanın özəl dünyası olduğu kimi, onun sevinci, kədəri, ümidi-ümidsizliyi, həsrəti, vüsalı da özəldi. Deməli, insanların sayı qədər də bu dediyim hisslər, duyğular mövcuddur. Mövcud olanlar da zamanın müstəvisində öz əksini tapmalıdır, necə ki, də tapır...

İndi özəl duyğuların burulğanı nə qədər ağrı, həyəcan yaşatsa da, hamı kimi mən də ondan çəkinib qaçmıram. Bilirəm və inanıram ki, bu bir alın yazısıdı, bir Tanrı payıdı. Yazını da, payı da açıq ürəklə qəbul edib onunla çıxdığım yolda hər şeyi göz altına almışam. Bu səbəbdən də büdrəmək, hətta üzü üstə yıxılmaq belə gözlənləndi. Sadəcə olaraq, mən bu gözləntilərin təkcə yükünü çəkmirəm, elə həm də onun özünün olmasına sevinirəm. Axı, bütün bunlar bir yaşamdı, özü də sevgi yaşamı - yəni Sən!

**Qayğılarla yüklənibdi ürəyim**
**Mən ağlayıb kirimirəm hələ də...**
**Sıxıntıdan təklənibdi ürəyim -**
**Halsızlıqdan, yerimirəm, hələ də...**

**Çiyinlərim əyilibdi bir azca**
**Dabanlarım yeyilibdi bir azca...**
**Bildiklərim deyilibdi bir azca -**
**Şam olsam da ərimirəm, hələ də...**

**Seçib qəlbi, gecələyib "ah" məndə**
**Ümid gəzir gah çevrəmdə, gah məndə...**
**Sevgi adlı ən böyük günah məndə -**
**Ölmürəm, nə dirilmirəm, hələ də...**

**Açıq qapı, ya pəncə... kim döyər**
**Kim sevgini Əbülfət tək de, öyər?**
**Səni belə niyə sevdim kim deyər?**
**Bunu özüm sirr bilirəm hələ də...**

***

Bəli, mən bütün hallarda zamanında damarını tutmağa çalışdım, hətta replika atanların da.

Təbii ki, bunun özü də zamanın diktəsidi. Axı, replika atanın özü də mənimlə bir zamanın adamıdı. Yəni o da bəhs etdiyim, dayandığım mənəvi müstəvinin üzərindədi. Haradan, hansı bucaq altından baxmağından asılı olmayaraq, onun özəl dünyası və özəl münasibətləri bir ruh məsələsidi. Əgər mənim dediyim zaman havası onun da ruhuna toxunubsa, deməli, bütün yazdıqlarımda yanılmamışam. Bir az da dəqiqləşdirsəm, məni duyan hər kəs elə bəhs etdiyim havanı mənimlə birgə ifa edir. Və bu yerdə mütləq duyğular misralanır, şeirləşir. Axı söhbət ruh doğmalığından gedir. Ona görə də yazıram:

**Söndürülmüş işığam**
**Kim yandıracaq məni?**
**Yenidən yanmağıma -**
**İnandıracaq məni...**

**Zamanın ləngərində**
**İllərin səngərində...**
**Hardan bir zəng gələndə -**
**De, andıracaq məni...**

**Ağırdı ömrün daşı**
**Kiprik də süzmür yaşı...**
**Bilməzdim addımbaşı -**
**O sındıracaq məni...**

**Əbülfət, üzülür can**
**Dodağında donur qan..**
**Gələcək elə bir an -**
**O qan tutacaq məni...**

**Bəli, bütün hallarda biz zamanın adamıyıq. Zamanı əynimizə geyib, zamanın havasına oynayıb, bəzən də zamana qarşı çıxırıq. Amma çayın axınına qarşı nə qədər üzürsən üz, yenə yorğun özün olacaqsan. Məncə havaya qarşı çıxmaqdansa, havanın çalarlarını dəyişmək, havanın rənginə rəng qatmaq lazımdır. Bax, bu yerdə qazanan sevgi olacaqdır. Kaş həmişə qazanan da elə Sevgi olsun!**